“Artıq Bakıda fiziki imkanları məhdud olan gənclər üçün gözəl reabilitasiya və peşə mərkəzi yaradılıbdır. Əminəm ki, bizim gənclərimiz bu imkanlardan səmərəli şəkildə istifadə edəcəklər. Burada həm reabilitasiya kursları keçiriləcəkdir, həm də peşə sahibi olmaq üçün gözəl imkanlar vardır, qalmaq, işləmək üçün yüksək şərait yaradılıb. Əslində, belə mərkəzlərin yaradılması Azərbaycanda güclü sosial siyasətin aparılması deməkdir”.

**İlham ƏLİYEV**



Ölkəmizin sosial dövlət statusunu xarakterizə edən cəhətlərdən biri də əlilliyi olan şəxslərin maddi və mənəvi tələbatlarının daha dolğun şəkildə ödənilməsi və həyat səviyyəsinin yaxşılaşdırılması, onların cəmiyyətə fəal inteqrasiyası istiqamətində tədbirlərin ildən-ilə gücləndirilməsidir. Bu tədbirlərin bir istiqaməti də əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud gənclərin əmək bazarına çıxış və məşğulluq imkanlarının artırılmasına, onların peşə reabilitasiyasının təmin edilməsinə yönəlib.

# HƏYATA DÖNÜŞ

## Peşə Reabilitasiya Mərkəzi sağlamlıq imkanları məhdud gənclərdə özünə inamsızlığı aradan qaldırır, uğur qazanmaq və cəmiyyətin həyatında fəal iştirak əzmini aşılayır





### 700-dən artıq gəncin sosial reabilitasiyası təmin olunub

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzi müasir tələblərə uyğun maddi-texniki bazaya və uğurlu iş təcrübəsinə malikdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 2013-cü ilin dekabr ayında istifadəyə verilən Peşə Reabilitasiya Mərkəzi sağlamlıq imkanları məhdud gənclərin müxtəlif peşələr üzrə bilik və bacarıqlar qazanaraq məşğulluq və nəticə etibarilə həyatda öz potensiallarını təsdiq etmək imkanlarına yiyələnmələrində, ümumən onların sosial reabilitasiyasında mühüm rol oynayır.

Sağlamlıq imkanları məhdud gənclərin səmərəli peşə hazırlığını təmin etmək üçün bütün şəraitin yaradıldığı mərkəz əsas və çoxfunksiyalı binadan ibarətdir. Mərkəzdə kompüter istifadəçisi və kompüter dizayneri, dərzi, bərbər, toxuculuq, ağac üzərində oyma, rəssamlıq, kulinariya, xalçaçılıq, tikiş, toxuma və digər sahələr üzrə peşə hazırlığı kursları keçirilir, həmçinin musiqi və bədii yaradıcılıq otaqları var. Burada ölkəmizin müxtəlif bölgələrindən peşə hazırlığına cəlb olunmuş sağlamlıq imkanları məhdud gənclərin reabilitasiyası üçün ən müasir avadanlıqlarla təchiz olunmuş tibbi korpus, peşə təlimi müddətində qalmaq üçün yataqxana və yeməkxana, idman korpusu, stolüstü oyunlar və konfrans zalları da fəaliyyət göstərir.

İstifadəyə verildiyi vaxtdan bəri Peşə Reabilitasiya Mərkəzində artıq 700 nəfərdən çox sağlamlıq imkanları məhdud gənc peşə hazırlığı kurslarına cəlb olunub. Kursları uğurla başa vuran, müvafiq peşə üzrə bilik və bacarıqlara lazımınca yiyələnən gənclərə peşə şəhadətnamələri, yalnız özünüməşğulluq imkanlarına yiyələnə bilən şəxslərə isə peşə kursunu bitirmələri barədə arayışlar verilir. Sonrakı mərhələdə isə həmin gənclərin yeni yiyələndikləri peşələr üzrə məşğulluqlarının təmin olunması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq orqanları tərəfindən müvafiq işlər aparılır.

Hazırda 114 nəfərin peşə təlimində olduğu mərkəzdə ayrı-ayrı peşələrlə yanaşı, istedad və qabiliyyət tələb edən tətbiqi sənət növləri (rəssamlıq, xalçaçılıq, ağac üzərində oyma, toxuculuq və s.) üzrə kurslar da fəaliyyət göstərir. Gənclərin bu sənət növləri üzrə malik olduqları bacarıqlar xüsusi təlim məşğələləri şəraitində, tanınmış mütəxəssislərin iştirakı ilə vaxtaşırı olaraq təşkil olunan treninqlər, ustad dərsləri vasitəsilə daha da təkmilləşdirilir. Həmin gənclərin yaradıcılıq imkanlarının cəmiyyətə təqdim edilməsi və təbliği, cəmiyyətin mədəni həyatında iştirak etmələrinə şərait yaradılması yönündə də işlər aparılır, tez-tez onların tətbiqi sənət nümunələrindən ibarət əl işlərinin sərgiləri keçirilir.



Ötən dövrdə mərkəzin gənclərinin “Gənclərin incəsənət sevgisi”, “Mənim dünyam” “Qüsursuz sənət”, “Xəyallarımın dünyası”, “Bu - bizik” və s. mövzularda müxtəlif məkanlarda sərgiləri təşkil olunub. 2015-ci ilin noyabr ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil olunan Əlilliyi olan şəxslərin IX Ümumrespublika Yaradıcılıq Sərgi-müsabiqəsində isə digər əlilliyi olan şəxslərlə yanaşı, Peşə Reabilitasiya Mərkəzinin gəncləri də fəal iştirak edib. Cəmiyyət tərəfindən böyük maraqla qarşılanan, 221 nəfər əlilliyi olan şəxsin və sağlamlıq imkanları məhdud uşağın 760-dan çox əl işinin təqdim edildiyi bu sərgi-müsabiqədə mərkəzdə müxtəlif sənət növlərində təlim keçən gənclərin 200-dən çox əl işi də nümayiş olunub və onların hazırladıqları “Buta” və “Hana” kompozisiyaları xüsusi diplomlara layiq görülüb.



### “Bakı-2015”in könüllüləri...

Ümumilikdə bu gün Peşə Reabilitasiya Mərkəzi yalnız peşə hazırlığı müəssisəsi kimi deyil, ümumən sağlamlıq imkanları məhdud gənclərin sosial reabilitasiyasına, onların cəmiyyət həyatında fəal iştirakına yönələn çoxşaxəli tədbirlərin həyata keçirildiyi bir müəssisədir. Peşə hazırlığına cəlb olunmuş gənclərin müxtəlif mədəni-kütləvi tədbirlərdə iştirakı, onlar üçün ekskursiyaların təşkili təmin olunur, müstəqil həyata hazırlanmaları, gələcəkdə ictimai həyatda özlərini təsdiq etmələri üçün məqsədyönlü işlər aparılır. Mərkəzin həyatında yaddaqalan hadisələrdən biri peşə hazırlığı kursunda olan gənclərdən 18 nəfərinin ötən il Azərbaycanda yüksək səviyyədə keçirilən “Bakı-2015” I Avropa Oyunlarında könüllü kimi iştirak etməsidir. Onlar fəal gənclərimiz sırasında olub və sertifikatlara layiq görülüblər. Eyni zamanda mərkəzdə peşə təlimi keçən gənclərin “Bakı-2015” yarışlarını canlı şəkildə izləmələri, yarışlarda tamaşaçı kimi iştirak etmələri də təmin edilib.





Mərkəzin direktoru Rəhilə Həsrətova deyir ki, mərkəzdə gənclər bu və ya digər peşənin sirlərinə yiyələnməklə yanaşı, əvvəllərdə sağlamlıq imkanları məhdudluq səbəbindən mövcud olmuş özünü təcrid etmə psixologiyası tədricən aradan qalxır. Onlarda özünə inam hissi, potensial bacarığını üzə çıxararaq aktiv həyat tərzinə doğru irəliləmək əzmi yaranır və həyatlarında, talelərində müsbət mənada bir dönüş özünü göstərir: “Məsələn, sağlamlıq imkanları məhdud gənclərdən biri olan Nərmin Quliyeva bu mərkəzə qəbul olunanda onda özünə inamsızlıq vardı və sadəcə, peşə təlimi almaqla kifayətlənmək istəyirdi. Lakin bir müddət burada rəssamlıq kursunda təlim keçdikdən sonra həyata münasibəti tam dəyişdi və qısa müddətdə bu sənəti o qədər sevdi ki, peşə təlimini bitirəndən sonra uğurla imtahan verərək Azərbaycan Rəssamlıq Akademiyasına daxil oldu və hazırda orada fəal tələbələrdən biridir. Halbuki, bura gələndə o bu barədə heç fikirləşmirdi. Yaxud Asif Qasımov mərkəzdə ağac üzərində oyma sənəti üzrə təlim keçirdi. Burada olarkən mərkəzin trenajor zalında müvafiq şəraitdən, avadanlıqlardan istifadə edərək, avarçəkmə idman növündə özünü sınadı. Sonra onda bu idman növünə maraq getdikcə artdı. İndi Asif avarçəkmə idman növü üzrə xaricdə təşkil olunan paralimpiya yarışlarında Azərbaycanı uğurla təmsil edənlər sırasındadır. Zəngilan rayonundan olan məcburi köçkün Aytəkin Şahməmmədova mərkəzə gələndən sonra az müddətdə rəssamlıq və toxuma sənətində bacarığını təsdiqlədi və indi sosial xidmət müəssisələrindən birində bu sənət növlərini digərlərinə öyrədir”.



R.Həsrətova dedi ki, belə nümunələr çoxdur və mərkəzə qəbul edilən sağlamlıq imkanları məhdud gənclərdə, ilk növbədə, özünə inam hissi, daim uğur qazana bilmək iradəsi formalaşdırılır: “Burada peşə təlimi keçmiş sağlamlıq imkanları məhdud gənclərin artıq bu peşələr üzrə əmək fəaliyyəti göstərdiklərini, fəal insanlar olduqlarını görəndə çox sevinirik. Onlar həmişə bu mərkəzdə diqqət və qayğı ilə əhatə olunublar, ona görə də mərkəzdən getdikdən sonra da burada olduqları günləri xoş hisslərlə xatırlayır, bu mərkəzə daim doğma münasibət bəsləyirlər”.

### “Həyatı sevməyə başladıq...”

Mərkəzdə peşə təlimi keçən gənclərlə söhbətimiz zamanı onlar ölkəmizdə belə bir mərkəzin yaradılmasının Azərbaycan Prezidenti İlham Əliyevin əlilliyi olan insanlara xüsusi diqqət və qayğısının nəticəsi kimi qiymətləndirdilər, yalnız peşə reabilitasiyası üçün deyil, ümumən cəmiyyətdə fəal iştirak imkanlarına malik olmaları üçün yaradılan bu şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etdilər.

Nuranə Hacıyevanın dedikləri: “Mən Beyləqan rayonundan gəlmişəm və burada tikişçilik peşəsinə yiyələnirəm. Düşünürəm ki, hər bir insanın, o cümlədən əlilliyi olan şəxsin bir peşə üzrə qabiliyyəti olmalıdır. Mən də bu peşəni indi həvəslə öyrənirəm və tam əminəm ki, gələcəkdə tikişçilik peşəsində özümü doğruldacağam. Çox sevinirəm ki, respublikamızda belə bir mərkəz var, burada hər bir qayğı ilə təmin olunmuşuq. Ayrı-ayrı bölgələrdən gəlmiş gənclər burada sanki bir ailə kimi yaşayırlar və aramızda gözəl dostluq münasibətləri də var. Biz burada həyatı sevməyə başladıq”.

Şahin Hüseynov isə Gədəbəy rayonundandır. O bildirdi ki, dərzilik üzrə peşə hazırlığı kursuna qəbul olunub: “Açığı, bura gələndə peşəyə marağım çox deyildi, həm də inanmırdım ki, onu öyrənə bilərəm. Amma ətrafımdakılar da təsdiq edərlər ki, indi mən necə həvəslə bu peşənin sirlərini öyrənirəm. Öyrəndikcə də marağım artır. Əminəm ki, mən yaxşı bir dərzi olacağam”.

Salyan rayonundan gəlmiş Ramin Səfərov mərkəzdə rəssamlıq sənətini öyrənir: “Buraya gələndə inanmırdım ki, hansısa peşəni öyrənə bilərəm, açığı, heç bir sahədə azacıq da olsa biliyim, qabiliyyətim yox idi. Sadəcə, kompüter istifadəçisi peşəsini seçdim ki, bəlkə nəsə alındı...” Kurs yoldaşlarının dediyinə görə, Ramin az sonra burada rəssamlıq üzrə məşğələləri seyr edərkən onda bu sənətə hədsiz maraq yaranıb. Tərəddüd etmədən bu kursa yazılıb və qısa zaman içərisində rəssamlıqda istedadlı bir insan kimi özünü göstərib: “Hətta sərgilərdə Raminin əl işləri hamıda maraq oyadır. Əlilliyi olan şəxslərin IX Ümumrespublika Yaradıcılıq Sərgi-müsabiqəsində də fərqlənənlər sırasında olub. Ramin hazırda rəssamlıq üzrə ali təhsil almaq və özünə uğurlu karyera qurmaq arzusundadır. Həm də o buraya gələndə digərlərindən fərqli olaraq, ünsiyyətdən qaçan bir gənc idi. Amma indi tamam əksinədir”.





Həmsöhbət olduğumuz Nahidə Abbasova (Balakən), Ruhəngiz Musayeva (Şəki), Ələddin Rzayev (Lerik) və başqaları da mərkəzin sağlamlıq imkanları məhdud gənclərin peşə və sosial reabilitasiyasında əhəmiyyətli rol oynadığını bildirdilər.

Beləcə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Peşə Reabilitasiya Mərkəzi sağlamlıq imkanları məhdud yüzlərlə gənci yalnız peşə bacarıqlarına, məşğulluq imkanlarına sahib etmir, həm də onların potensial qabiliyyətlərini üzə çıxarır, öz bacarıq və qabiliyyətlərini səfərbər etməklə sağlamlıq imkanları məhdudluğun sədlərini aşmaq və daim irəliləmək, uğur qazanmaq, cəmiyyətin həyatında fəal iştirak etmək əzminə yiyələndirir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir*